# “Şahdəniz-2” layihəsi çərçivəsində tikinti-quraşdırma işləri sürətlə davam edir

## Layihə üzrə işlərin 77 faizindən çoxu tamamlanıb

***❐ Azərbaycanı dünyanın potensial qaz ixracatçısına çevirmiş “Şahdəniz” yatağının ikinci işlənmə mərhələsi çərçivəsində tikinti-quraşdırma işləri uğurla davam edir. 2016-cı il sentyabr ayının 1-də “Şahdəniz-2” platformalarının ilk dayaq bloku dənizə yola salınıb. Bu münasibətlə Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda keçirilən mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak edib.***



Mərasimdə dövlətimizin başçısına məlumat verilib ki, "BOS Shelf", "Star Gulf" və "Saipem" konsorsiumları tərəfindən inşa edilən dayaq blokunun çəkisi 13 min 150 ton, hündürlüyü isə 105 metrdir. Blok 12 hasilat, 3 ixrac dikborusundan və bir idxal dikborusundan ibarətdir. Dayaq bloku suyun 94 metr dərinliyində quraşdırılacaq. Xəzər dənizində ən çox dikboru sayına malik olan blokun konstruksiyasının daşınması, suya endirilməsi, yerləşdirilməsi və payalarla quraşdırılması işləri diqqətlə planlaşdırılıb. Bu işlərin təxminən 40 gün ərzində yekunlaşdırılması nəzərdə tutulur. Dayaq blokunun tikintisi cədvələ uyğun tamamlanıb və 2016-cı il iyulun 29-da dənizə yola salınmaq üçün uğurla Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun yanalma körpüsündə Xəzər Dəniz Gəmiçiliyinin STB-1 daşıma barjına yüklənib. Blok zavod ərazisində yerli infrastrukturdan və obyektlərdən istifadə edilməklə, bütövlüklə ölkə daxilində inşa edilib. Tikinti işlərinə subpodratçılar və ixtisaslaşmış təchizatçılar da daxil olmaqla, 5 mindən çox işçi cəlb edilib. Tikintiyə cəlb olunmuş işçi qüvvəsinin təxminən 90 faizi Azərbaycan vətəndaşları olub. "Şahdəniz-2" platformasının dayaq blokunun dənizə yola salınmasını tarixi hadisə kimi dəyərləndirən Prezident İlham Əliyev deyib: "Şahdəniz" layihəsi üzrə saziş 20 il bundan əvvəl imzalanmışdır və bu illər ərzində uğurla icra edilir, bütün vəzifələr yerinə yetirilir... "Şahdəniz-2" layihəsi təkcə Azərbaycan üçün deyil, bütün region, Avropa üçün böyük əhəmiyyət daşıyan bir layihədir. İyirmi il bundan əvvəl saziş imzalanmışdır və bu gün biz bu sazişin gözəl nəticələrini görürük. Artıq neçə ildir ki, Azərbaycan qazı region ölkələrinə ixrac edilir. Azərbaycan öz enerji təhlükəsizliyini tam təmin edibdir və digər ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasında öz rolunu oynayır". "Şahdəniz" yatağının kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsünə dair saziş 1996-cı il iyun ayının 6-da Bakı şəhərində keçirilən 3-cü beynəlxalq "Xəzər neft-qaz" sərgi və konfransı çərçivəsində imzalanıb. Bir neçə mərhələdə reallaşdırılması nəzərdə tutulan "Şahdəniz" layihəsi çərçivəsində tikinti-quraşdırma işlərinə 2003-cü ilin fevral ayında start verilib. Birinci mərhələ çərçivəsində "Şahdəniz" yatağındakı zəngin qaz və kondensat ehtiyatlarının hasilatına imkan yaradan nəhəng platforma inşa olunub, sualtı boru kəməri çəkilib, Səngəçal terminalında əlavə genişləndirmə işləri həyata keçirilib. Bundan əlavə, "Şahdəniz" qazının dünya bazarına ixracını təmin etmək məqsədilə Cənubi Qafqaz boru kəməri tikilib istismara verilib.

"Şahdəniz" yatağının birinci işlənmə mərhələsi çərçivəsində qaz hasilatına isə 2006-cı ildə başlanıb. Bu mərhələdə maksimum hasilat ildə 9 milyard kubmetr qaz və gündə 50 min barrel kondensat təşkil edib. bp şirkəti və tərəfdaşları tərəfindən "Şahdəniz-1" layihəsinə indiyədək təqribən 12 milyard ABŞ dollarından artıq investisiya yönəldilib. Yeri gəlmişkən, "Şahdəniz" qaz hasilatı və ixracı layihəsinin iştirakçıları bp (operator-28,8 faiz), AzŞD (10 faiz), Cənub Qaz Dəhlizi Apstrim (6,7 faiz), Petronas (15,5 faiz), LUKOYL (10 faiz), NİKO (10 faiz) və TPAO (19 faiz) şirkətləridir.

bp-nin 2016-cı ilin birinci yarısının nəticələri ilə bağlı yaydığı hesabata əsasən, "Şahdəniz" layihəsinin birinci mərhələsi üzrə fəaliyyətlərə təqribən 225 milyon dollar əməliyyat və təqribən 1,87 milyard dollar əsaslı xərclər sərf edilib. Əsaslı xərclərin isə böyük əksəriyyəti "Şahdəniz-2" layihəsinə aid olub.

2016-cı ilin yanvar-iyun aylarında "Şahdəniz" yatağından Azərbaycan, Gürcüstan və Türkiyə bazarları üçün qaz hasilatı davam etdirilib. Xatırladaq ki, "Şahdəniz" yatağının ilk işlənmə mərhələsi çərçivəsində çıxarılan qaz Azərbaycana, GOGC (Gürcüstan) şirkətinə, BOTAŞ-a və BTC şirkətinə satılır. Cari ilin ilk yarısı ərzində "Şahdəniz" yatağından 5,4 milyard standart kubmetr qaz və 1,66 milyon ton (təqribən 13,4 milyon barrel) kondensat hasil edilib. Bütövlükdə isə 2006-cı ilin dekabr ayında hasilata başlandığı vaxtdan cari ilin ortalarınadək "Şahdəniz" yatağından təqribən 74 milyard kubmetr qaz çıxarılıb. Məlum olduğu kimi, sualtı boru kəməri vasitəsilə Səngəçal terminalına nəql olunan təbii qaz burada emal prosesindən keçdikdən sonra ixraca yönəldilir. Hazırda "Şahdəniz-1" layihəsi çərçivəsində istismar olunan mövcud qurğuların hasilat gücü gündə 29,5 milyon standart kubmetr və ya ildə təqribən 10 milyard kubmetrdir. Səngəçal terminalının ümumi qaz emalı və ixracı gücü ("Azəri-Çıraq-Günəşli" səmt qazı da daxil olmaqla) isə gündəlik təqribən 49,3 milyon standart kubmetr təşkil edir. Bu ilin altı ayı ərzində terminaldan, həmçinin gündəlik orta hesabla 29,3 milyon standart kubmetr (1 milyard 35 milyon standart kubfut) "Şahdəniz" qazı ixrac edilib.

Bu ilin birinci yarısında "Şahdəniz" yatağının birinçi işlənmə mərhələsi çərçivəsində qazma əməliyyatları da uğurla davam etdirilib. Belə ki, ilin əvvəlindən müqavilə sahəsində 4 qaz hasilatı quyusunun (SDA-09, SDA-10, SDA-11 və SDA-12) üst seksiyaları qazılıb. Hazırda isə SDA-09 quyusunda qazma əməliyyatları davam etdirilir. "Şahdəniz"də qazma işləri həyata keçirən "İstiqlal" qurğusu iyun ayında sertifikatlaşdırma və irihəcmli yenidənqurma işlərini bitirdikdən sonra tərsanədən sözügedən yatağın şimal cinahına yaxın dayaz sulu əraziyə gətirilib. Burada yatağın şimal cinahında quyu tamamlama əməliyyatlarına başlamaq üçün qurğunun üzərində istismara vermə və hazırlıq işləri aparılır. Bununla yanaşı, "Heydər Əliyev" qazma qurğusu SDG-02 və SDG-04 quyularının 10 düyümlük kəmər quyruğunadək olan seksiyalarını və həmçinin SDG-03 quyusunu son dərinliyinə qədər qazıb. Artıq bu iki qazma qurğusunun gücü ilə ilk qazın hasilatına və ondan sonrakı tədrici artırılmasına hazırlıq çərçivəsində on hasilat quyusu qazılıb. Bütövlükdə isə yataqda qazma işləri hasilatın planlaşdırılan sabit səviyyəsinə nail olmaq üçün tələb olunan bütün quyuların qazılması istiqamətində davam edəcək.

Cari ilin ilk yarısında "Şahdəniz" yatağının birinci işlənmə mərhələsi çərçivəsində çıxarılan qazı xarici bazarlara ixrac edən Cənubi Qafqaz boru kəməri də fəaliyyətini uğurla davam etdirib. Yeri gəlmişkən, Azərbaycan qazının ixracını həyata keçirən bu boru kəməri 2006-cı ilin sonlarında istismara verilib. Kəmər Azərbaycana və Gürcüstana, 2007-ci ilin iyul ayından başlayaraq isə həm də Türkiyəyə "Şahdəniz-1" qazını çatdırır. Ötən müddətdə Cənubi Qafqaz boru kəməri ilə Gürcüstana 5,5 milyard kubmetr, Türkiyəyə isə 41 milyard kubmetr təbii qaz verilib. Cənubi Qafqaz boru kəmərinin sərmayədarları bp (texniki operator – 28,8 faiz), AzCQBK (10 faiz), Cənub Qaz Dəhlizi Midstrim (6,7 faiz), LUKOYL (10 faiz), Petronas (15,5), NİKO (10 faiz) və TPAO (19 faiz) şirkətləridir. Kəmərlə bağlı fəaliyyətləri iki şirkət idarə edir. bp şirkəti obyektlərin tikintisi və istismarı üzrə məsul texniki operator, SOCAR isə biznes icrası üzrə məsul kommersiya operatorudur. Bu ilin yanvar-iyun aylarında kəmərin gündəlik orta ötürücülüyü 20,1 milyon kubmetr təşkil edib. İlin altı ayı ərzində Cənubi Qafqaz boru kəməri ilə bağlı fəaliyyətlərə 13 milyon dollar əməliyyat və 498 milyon dollar əsaslı xərclər sərf edilib.

Məlum olduğu kimi, "Şahdəniz" layihəsinin ikinci işlənmə layihəsi çərçivəsində hasil ediləcək qazın Avropa bazarlarına ixracı üçün hazırda mövcud Cənubi Qafqaz boru kəməri genişləndirilir. 2013-cü il dekabrın 17-də Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi layihəsi üzrə yekun investisiya qərarı qəbul edildikdən bəri layihə üzrə bütün müqavilələr imzalanıb. Cari ilin ilk yarısında Cənubi Qafqaz boru kəməri genişləndirilməsi layihəsi çərçivəsində işlər Azərbaycan və Gürcüstanda boru kəməri marşrutu boyu davam etdirilib. Ötən dövrdə Azərbaycanda təqribən 129 kilometr uzunluğunda borular qaynaq edilib, 112 kilometr boru örtüklənib, 85 kilometr boru isə xəndəyə endirilib. Hazırda xəndəyin qazılması, boruların endirilməsi, düzülməsi və üstünün torpaqlanması işləri davam edir. Göyçayda ikinci üfüqi istiqamətdə qazma işləri də bu ilin ikinci rübündə tamamlanıb. Kəmərin Azərbaycan hissəsi üçün lazım olan bütün borular Muğan, Kürdəmir, Yevlax, Qazançı və Dəllər borusaxlama sahələrindədir.

Son üç ayda Gürcüstanda xəndəyin qazılması, boruların xəndəyə endirilməsi və düzülməsi işləri də tikinti cədvəlinə uyğun şəkildə həyata keçirilib. Bütövlükdə isə ötən müddətdə qonşu ölkədə 52 kilometrə yaxın boru qaynaq edilib, 28 kilometrdən çox boru örtüklənib, 17 kilometrə yaxın boru isə xəndəyə endirilib. Eyni zamanda, hər iki kompressor stansiyasında tikinti-quraşdırma tədbirləri davam etdirilib, 1-ci kompressor stansiyasında işlər 57 faiz, 2-ci kompressor stansiyasında isə işlər 29 faiz yerinə yetirilib. Bununla yanaşı, ölçmə stansiyasında tikinti işlərinin 36 faizi tamamlanıb. Bütün bu işlərin isə 2018-ci ildə başa çatdırılması nəzərdə tutulur.

Yeri gəlmişkən, müstəqilliyinin ötən illərində həyata keçirdiyi uğurlu neft strategiyası, bir sıra qlobal enerji layihələrinin təşəbbüskarı və fəal iştirakçısı kimi beynəlxalq aləmdə böyük nüfuz qazanmış Azərbaycan Respublikası artıq özünü zəngin qaz ölkəsi kimi də təqdim edə bilib. Təsadüfi deyil ki, son illər "mavi yanacağa" getdikcə artmaqda olan tələbatının ödənilməsinə çalışan Avropa və bir sıra dünya ölkələri əsas qaz təchizatçısı kimi məhz Azərbaycana ümid bəsləyirlər. Bu isə ölkəmizə qaz ehtiyatlarını dünya bazarına çıxarmaq üçün şaxələndirilmiş ixrac marşrutlarının yaradılmasına yol açır. Artıq "Şahdəniz" qazının uzun məsafə qət edərək gələcəkdə Balkanlara, hətta Rumıniya, Macarıstan və Avstriyaya qədər gedib çıxması da gündəmdə olan məsələlərdəndir. Buna isə "Şahdəniz" yatağının ikinci işlənmə mərhələsi çərçivəsində nail olunacaq. Hazırda bütün dünyanın diqqət mərkəzində olan "Şahdəniz-2" layihəsi Azərbaycan qazını Avropaya və Türkiyəyə çatdıracaq nəhəng bir layihədir. Bu layihə yeni "Cənub" qaz dəhlizi açmaqla Avropa bazarlarına qaz təchizatının və enerji təhlükəsizliyinin artırılmasına mühüm töhfələr verəcək. Belə ki, 28 milyard dollar dəyərində olan bu layihə reallığa çevrildikdən sonra yatağın birinci işlənmə mərhələsi çərçivəsində hasil edilən illik 9 milyard kubmetr qazın həcmi xeyli artaraq 25 milyard kubmetrə çatdırılacaq. Bu isə "Şahdəniz"in hazırda dünyanın ən böyük qaz işlənməsi layihələrindən biri olduğunu sübut edir. İkinci mərhələ çərçivəsində hasil ediləcək ildə 16 milyard kubmetr qaz təxminən 3500 kilometr məsafəyə nəql edilərək Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan və İtaliyadakı milyonlarla istehlakçını enerji ilə təmin edəcək. İlk qazın Gürcüstan və Türkiyəyə nəqli 2018-ci ilin sonlarına nəzərdə tutulur. Avropaya isə qazın bundan təxminən bir il sonra çatdırılacağı planlaşdırılır.

Göründüyü kimi, Azərbaycanın zəngin qaz ölkəsi olduğunu sübut edən "Şahdəniz" yatağının ikinci işlənmə mərhələsi çərçivəsində işlər sürətlə davam etdirilir. Qeyd etdiyimiz kimi, 2013-cü il dekabrın 17-də Şahdəniz konsorsiumu tərəfindən ikinci işlənmə mərhələsi üçün yekun investisiya qərarı təsdiq olunduqdan sonra "Şahdəniz" qaz hasilatı və ixracı layihəsi həlledici mərhələyə qədəm qoymuşdur. Bu qərar Azərbaycan və Gürcüstan ərazisi boyunca Cənubi Qafqaz boru kəmərinin ixrac gücünə ildə 16 milyard kubmetr əlavə olunması (Azərbaycanda 48 düyməlik yeni boru kəməri, Gürcüstanda isə iki kompressor stansiyası vasitəsilə), Türkiyə ərazisindən keçən Trans-Anadolu qaz boru kəmərinin (TANAP) və Yunanıstan, Albaniya ərazisindən keçərək İtaliyaya uzanan Trans-Adriatik boru kəmərinin (TAP) tikintisi ilə bağlı planların gerçəkləşməsinə təkan verir. Bu layihələr birlikdə, həmçinin qazı Bolqarıstana ötürəcək infrastruktur, Avropaya yeni bir "Cənub" qaz dəhlizi açacaq. Xatırladaq ki, qazın satışı və nəqli üzrə bütün sazişlər Azərbaycan Qaz Təchizatı Şirkəti tərəfindən idarə olunacaq.

Sahildən təxminən 70 kilometr məsafədə yerləşən Şahdəniz yatağının işlənməsinin ikinci mərhələsi layihəsinin planlarına körpü ilə birləşdirilmiş iki yeni hasilat platforması, iki yarımdalma qazma qurğusu vasitəsilə qazılacaq 26 sualtı quyu, suyun 550 metrədək dərinliyində çəkiləcək 500 kilometr uzunluğunda sualtı boru kəmərləri, Cənubi Qafqaz boru kəmərinin ixrac imkanlarının artırılması məqsədilə Azərbaycanda 48 düyməlik yeni boru kəməri, Gürcüstanda isə iki kompressor stansiyası vasitəsilə ildə 16 milyard kubmetr əlavə olunması, həmçinin Səngəçal terminalının genişləndirilməsi daxildir.

2013-cü ilin dekabr ayında yekun investisiya qərarı veriləndən bəri "Şahdəniz-2" layihəsi qrafik üzrə irəliləyib. Bu ilin ilk yarısında sözügedən layihə üzrə nəzərdə tutulmuş işlər qrafikə uyğun davam etdirilərək bir sıra mühüm nailiyyətlər əldə olunub. Artıq layihə üzrə işlər – mühəndis işləri, təchizat və tikinti işləri də daxil olmaqla – ümumilikdə 77 faizdən çox tamamlanıb ki, bu da ilk qazın 2018-ci ildə əldə edilməsi planına tam uyğundur. Hazırda ölkədəki bütün tikinti-quraşdırma və istehsalat sahələrində – həm dənizdə, həm də quruda, o cümlədən Səngəçal terminalı, Bibiheybətdəki ATA (AMEK-Tekfen-Azfen) sahəsi, Bakı Dərin Özüllər Zavodu və boru kəməri marşrutu boyunca irimiqyaslı işlər davam etdirilir.

2016-cı ilin ikinci rübündə "İsrafil Hüseynov" boru düzən gəmisi "Şahdəniz" yatağının şimal cinahındakı sualtı qurğular birləşməsindən platformaya qədər olan sualtı kəmərin kompleks quraşdırılmasını başa çatdırıb. Hazırda gəmi digər sualtı kəməri quraşdırmaqdadır. Daha sonra isə qərb cinahındakı daha iki sualtı kəməri quraşdırmaq üçün ora istiqamətlənəcək.

Bir müddət əvvəl suya endirilmiş "Xankəndi" sualtı tikinti gəmisində quraşdırılacaq əsas kran da artıq gəmiyə gətirilib. İndi istismara verilmə və sertifikatlaşdırma üçün hazırlıq işləri gedir. Bu işlər bitdikdən sonra "Xankəndi" gəmisi "Şahdəniz-2" sahəsinə aparılaraq sualtı qurğuların tikintisini icra edəcək. Eyni zamanda, layihəyə cəlb olunmuş "Azərbaycan" kran barjı "Şahdəniz" yatağının şimal cinahındakı bütün sualtı fontan qurğularının və infrastrukturun quraşdırılmasını müvəffəqiyyətlə başa çatdırıb.

2016-cı ilin birinci yarısında Bibiheybətdəki tikinti sahəsində “Şahdəniz-2” platformasının üst modullarının istismara verilməsinə başlanılıb və artıq 50 yaşayış modulunun hamısı yaşayış və texniki emal platformasında quraşdırılıb. Bakı Dərin Özüllər Zavodu sahəsində hasilat və dik borular platformasının dayaq bloku üzərində bütün borular və hər iki nəhəng ponton çənləri quraşdırılıb.

"Şahdəniz" yatağının ikinci işlənmə mərhələsi ilə bağlı mühəndis-layihələndirmə, tikinti və təchizat işləri üzrə milyardlarla dollar dəyərində əsas müqavilələr imzalanıb. Həmin müqavilələr isə öz növbəsində yerli vətəndaşların işlə təminatına mühüm töhfələr verib. Belə ki, Azərbaycanda bütün əsas müqavilələr üzrə tikinti işlərinə indiyədək 24 min nəfərdən çox insan cəlb olunub ki, onların da 80 faizindən çoxu yerli vətəndaşlardır.

Ölkəmiz hasil etdiyi təbii qaz həcmlərini Avropanın getdikcə artmaqda olan enerji tələbatının təminatına yönəltməyə, bu məqsədlə nəqliyyat marşrutlarının diversifikasiyasının tərəfdarıdır. Mövcud layihələr üzrə görülən işlər, eləcə də perspektiv strukturların potensialı isə nikbin proqnozlar üçün əsas verir. Belə ki, hazırda Azərbaycanın təsdiq olunmuş qaz ehtiyatları 2,5 trilyon kubmetrdən çoxdur. Artıq ölkə üzrə illik qaz hasilatı (laylara vurulan qaz istisna olunmaqla), təqribən, 20 milyard kubmetrə çatıb. Qaz hasilatını 2025-ci ilə qədər isə 40 milyard kubmetrə çatdırmaq üçün real imkanlar mövcuddur. Bu isə Azərbaycanın regionun və Avropa ölkələrinin enerji təhlükəsizliyinin təminatında rolunu daha da artıracaqdır.

***Mirbağır YAQUBZADƏ,***
***“Xalq qəzeti”***